# Gədəbəy inkişaf edir, müasirləşir



**Respublikanın bütün bölgələrində son illərdə inkişaf və tərəqqi geniş vüsət almışdır. Azərbaycanın ən dilbər guşələrindən olan, dağlar qoynunda məğrur dayanan, düşmənin bütün təxribatlarına mərdliklə sinə gərən Gədəbəydə bu gün bütün sahələrdə sevindirici nəticələr əldə olunur. Dövlətimizin başçısı cənab İlham Əliyevin tövsiyə və tapşırıqları Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mustafayevin rəhbərliyi ilə uğurla icra olunur. Ulu Tanrının heç bir gözəlliyini əsirgəmədiyi Gədəbəydə aparılan infrastruktur layihələri, quruculuq-abadlıq işləri rayonu daha füsunkar və cazibədar məkana çevirir. Rayon iqtisadiyyatının əsasını təşkil edən aqrar sahənin, turizmin, eləcə də digər sahələrin inkişaf etdirilməsi üçün münbit şərait yaradılmışdır. Rayonda kənd təsərrüfatı məhsullarının istehsalında dinamik artım müşahidə olunur. Bir faktı xüsusilə vurğulamaq lazımdır ki, respublikada qiymətli ərzaq məhsulu kartofa olan tələbatın çox hissəsini gədəbəylilər ödəyir. 2019-cu ildə 10377 ha sahədə kartof əkilib becərilmiş, hər hektardan 114 sentner yüksəkkeyfiyyətli məhsul əldə olunaraq respublika bazarlarında bolluq yaratmışdır. 1813,8 ha buğda (orta məhsuldarlıq 29,5 sentner) 191 ha arpa, 240 ha kələm, 80 ha yerkökü, 10 ha xiyar-pomidor, 1 ha sarımsaq, 26,2 ha lobya, 75 ha sahədə çuğundur əkilərək yüksək məhsuldarlığa nail olunmuşdur. 2020-ci ilin məhsulu üçün 10403 ha sahədə kartof, 2253 ha buğda, 323,9 ha müxtəlif növ tərəvəz məhsulları, 230,7 ha sahədə arpa əkilərək yüksək aqrotexniki qulluq göstərilir. Mütəxəssislər cari ildə ötən ildəkindən çox məhsul olacağını proqnozlaşdırırlar.**

Gədəbəydə maldarlığın inkişaf etdirilməsi istiqamətində də zəruri tədbirlər həyata keçirilir. Hazırda rayonda 45622 baş iribuynuzlu, 229277 baş xırdabuynuzlu heyvan mövcuddur. Heyvanların sağlamlığının qorunması üçün baytarlıq-sanitar qaydaları həyata keçirilir. 833 kvadratmetr sahədə profilaktiki dezinfeksiya, 1543 kvadratmetr sahədə isə məcburi dezinfeksiya işləri aparılmışdır. İri və xırdabuynuzlu heyvanlarda, eləcə də, ev quşlarında müxtəlif xəstəliklərə qarşı peyvəndləmə işləri epizootik plana uyğun olaraq aparılır. Rayonda arıçılığın inkişaf etdirilməsi üçün tam münbit şərait mövcuddur. Rayonda 10256 arı ailəsi qeydiyyatdan keçirilmişdir. Ötən il Bakı şəhərində təşkil olunan bal yarmarkasında Gədəbəy arıçıları bir tondan artıq yüksəkkeyfiyyətli bal satışını həyata keçirmişlər.

Gədəbəydə təhsil infrastrukturunun yaxşılaşması istiqamətində tədbirlər davam etdirilir. 2019-cu ilin ikinci yarısı və 2020-ci ilin birinci yarımilində rayonun Zamanlı kənd tam orta, Böyük Qaramurad kənd tam orta, 4 nömrəli şəhər ümumi orta və Çay Rəsullu kənd tam orta məktəbləri cari təmir olunmuş, Çay Rəsullu kənd tam orta məktəbinin dam örtüyü dəyişdirilmişdir.

Köhnə Qışlaq kənd ümumi orta məktəbi üçün 80 şagird yerlik modul tipli məktəb quraşdırılaraq şagirdlərin istifadəsinə verilmişdir. Bundan əlavə, Günəşli kənd tam orta məktəbi üçün 40 şagird yerlik modul məktəbin quraşdırılması davam edir.

Əlinağılar kənd tam orta məktəbində 96 şagird yerlik modul tipli məktəbin tikintisinə start verilmişdir. Heydər Əliyev Fondunun xətti ilə 180 şagird yerlik 2 nömrəli Qoşabulaq kənd tam orta məktəbində tikinti işləri davam etdirilir.

Təhsil Nazirliyinin sifarişi ilə İ.Əliyev adına 1 nömrəli şəhər tam orta məktəbinin əsaslı təmir işlərinə başlanılmış, 22 sinif otağından ibarət əlavə korpusun tikilməsi nəzərdə tutulmuşdur.

Rayonda ictimai asayiş təmin olunmuş, cinayətkarlığa qarşı mübarizədə kompleks tədbirlər həyata keçirilmişdir. Rayon Polis Şöbəsinin əməkdaşları 19 ümumtəhsil məktəbində narkomanlığa, dini radikalizmə, erkən nikahların qarşısının alınması ilə bağlı iki dəfə gənclər və yeniyetmələr arasında maarifləndirici tədbirlər aparmışlar. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yerli icra hakimiyyəti orqanlarına vətəndaşların müraciətlərinə operativ baxılması, onların qəbulu və dinlənilməsi prosesinin təkmilləşdirilməsi ilə bağlı verdiyi tapşırıq və tövsiyələri Gədəbəy Rayon İcra Hakimiyyəti tərəfindən fəaliyyət prioriteti kimi qəbul edilib. Proses dərindən öyrənilib, yerli spesifika diqqətlə araşdırılıb, bu sahədə mövcud olan beynəlxalq təcrübə mənimsənilib.

Gədəbəy Rayon İcra Hakimiyyətinin inzibati binasında vətəndaşlara rahat, sənədlərin aşkarlıq şəraitində qəbul edilməsi və vaxt itkisi olmadan xidmət göstərilməsi üçün Operativ Xidmət Mərkəzi fəaliyyətə başlayıb.

Mərkəzin məqsədi rayon icra hakimiyyətinin səlahiyyətlərinə daxil olan xidmət və fəaliyyətlərin optimallaşdırılması, vətəndaş müraciətlərinin operativ formada həllinə nail olunması, vətəndaşın eyni vaxtda, vahid məkanda RİH-in bütün struktur bölmələri ilə ünsiyyətdə olmasının təmin edilməsi, keyfiyyətli xidmətin göstərilməsi və son nəticədə vətəndaş məmnunluğunun yüksəldilməsidir.

Operativ Xidmət Mərkəzinin fəaliyyətini təmin etmək məqsədilə rayon icra hakimiyyətində 625 kvadratmetr sahəyə malik yeni korpus inşa olunub. Binanın inşaat planı hazırlanarkən, onun xidmət yönümünə uyğunlaşdırılmasına xüsusi önəm verilib. Burada 9 xidmət masası, server otağı, məlumat masası, böyük monitor, mini ATS və Data Resurs Bazası, könüllülər üçün 8 nəfərlik dəyirmi masa, növbəliliyi təyin edən terminal, ödəmələrin həyata keçirilməsi üçün “Milli Ön” aparatı, 9 kompüter dəsti mövcuddur. Mərkəzdə quraşdırılmış böyük monitorda xidmət sahələrinin adı, həmin sahələrə məsul şöbələr, tələb olunan sənədlərin nümunəsi, sənədlərin icra müddəti, qanunvericilik bazası yerləşdirilmişdir. Hər sahəyə məsul şəxs telefon və kompüter dəsti ilə təchiz edilərək, internetə çıxışla təmin olunmuşdur.

Mərkəzə daxil olan vətəndaş xidmət terminalında aidiyyəti üzrə bölməni seçir və terminal avtomatik növbəlilik müəyyən edir. Vətəndaş aidiyyəti üzrə xidmətlər masasında əyləşmiş şöbənin məsul işçisinə sənədlərini təqdim edir, müraciətin həlli üçün qanunvericilikdə nəzərdə tutulmuş müddətin minimum iş günü müəyyən edilir və vətəndaşa sənədin verilməsi tarixi barədə məlumat verilir. Xidmət bütövlükdə videolentə alınır, eyni zamanda gün ərzində xidmətlərin statistikası barədə serverdə avtomatlaşdırılmış uçot aparılır.

Operativ Xidmət Mərkəzində memarlıq və tikinti məsələləri üzrə 16, sosial-iqtisadi məsələlər üzrə 7, hüquq məsələləri üzrə 10, İƏD üzrə nümayəndəliklər və bələdiyyələr üzrə 8 xidmət olmaqla, ümumilikdə 41 sahə üzrə xidmət həyata keçirilir.

Tikintisinə icazə tələb edilən tikinti obyektinin istismarına icazə verilməsi, yaşayış sahəsinə ehtiyacı olan qismində vətəndaşların uçota alınması, 2013-cü ilə qədər sənədsiz inşa edilmiş fərdi yaşayış evlərinin faktiki vəziyyətinin plan-sxeminin işlənilməsi və s. barədə məsələlərə qanunvericiliklə 30 gün müddətində baxılması nəzərdə tutulduğu halda, Mərkəz tərəfindən onların 5 iş günü müddətində icrası həyata keçirilir. Eyni zamanda, rüsum tələb olunan xidmətlərə görə vətəndaş banka getmədən Mərkəzdə quraşdırılmış terminal (Kapital bank) vasitəsilə ödənişi həyata keçirə bilir.

Mərkəzdə vətəndaş müraciətlərinin operativ həll edilməsi məqsədilə (3 rəqəmli nömrə - 164) “Qaynar xətt” yaradılmışdır, həmçinin xidmətlərin səmərəliliyinin artırılması üçün könüllülər fəaliyyət göstərir. “Qaynar xətt”ə daxil olmuş müraciət əsasında, RİH tərəfindən ayrılmış xüsusi avtomobil vasitəsilə məhdud hərəkətli vətəndaşlara öz ünvanlarında ilkin sənədləşmə işlərinə köməklik göstərilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarının icrasını daha səmərəli, həmçinin kreativ formada yerinə yetirmək məqsədilə ilk dəfə Gədəbəy rayonunda yaradılan Operativ Xidmət Mərkəzi vətəndaş məmnunluğunun yüksəldilməsini, əhalinin icra strukturlarına olan etimad və inamının daha da artırılmasını, keyfiyyəti və şəffaflıq prinsipləri əsasında xidmət göstərilməsini qarşısına məqsəd qoyur. Gədəbəy rayonunda tarixi abidələrin qorunması istiqamətində də mühüm işlər görülür.

Gədəbəy rayonunun Söyülü kəndində yerləşən Qız qalası IX əsrə aid olan ölkə əhəmiyyətli tarixi memarlıq abidəsidir (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 02 avqust 2001-ci il tarixli 132 nömrəli Qərarına əsasən). Qız qalası Şəmkir çayı ilə Mis su çayının (Altunçay) qovuşduğu ərazidə qayalıq zirvədə ucaldılmışdır. Ətrafı qayalıq, sıx meşə örtüyü olan bu qalaya yalnız piyada qalxmaq mümkündür. Qalaya çay tərəfdən, qayalıqlar arasındakı cığırla giriş mövcuddur. Bu qala rayondakı digər tarixi abidələrdən fərqli olaraq kərpiclə hörülmüşdür. Qırmızı rəngli kərpiclər düzbucaqlı formadadır. Qala divarlarının hündürlüyü 15 metrdən çoxdur.

Qız qalası kompleks tikili halındadır. Belə ki, burada qaladan başqa ayrı tikililər də mövcuddur. Qala 5 yarımdairəvi sütundan ibarətdir. Sütunlar hündürlüklərinə və diametrlərinə görə bir-birindən fərqlənirlər. Qalanın giriş-çıxış yerləri uçqunların təsirindən görünməz haldadır. Qalaya bitişik bir hissə Bakıdakı qala divarlarına bənzər istehkam divarlarıdır. Bu hissə güman edilir ki, daha çox müşahidə üçün inşa edilmişdir.

Qız qalası son dərəcə mənzərəli, füsunkar bir yerdədir. Qayalıqda ucaldılmış bu qala sıx meşə və yaşıllıqla əhatə olunmuşdur. Yaxınlığında çay və şəlalə olan bu qala turistlər üçün də olduqca maraqlı, diqqətçəkici və heyranlıqla seyr edilsi ərazidir.

Bütün bunlarla yanaşı, qalaya gedən yol infrastrukturu demək olar ki, yox dərəcəsində idi. Yuxarıda qeyd edilənləri, qalanın tarixi və turistik əhəmiyyətini nəzərə alaraq Gədəbəy Rayon İcra Hakimiyyəti tərəfindən qalaya avtomobil yolunun çəkilməsinə başlanılmışdır. Təxminən 10-12 km uzunluğunda çəkilməsi nəzərdə tutulmuş yolda işlər sürətlə davam etdirilir. Yolun çəkilməsində əsas məqsəd qalaya gedən turistlərin rahat gediş-gəlişini təmin etməkdir. Qız qalasına çəkilən bu yol eyni zamanda 4-cü əsrə aid ölkə əhəmiyyətli tarixi memarlıq abidəsi olan Mahrasa məbədinə də gediş-gəlişi asanlaşdırmış olur.

Gədəbəydə eko-turizmin inkişafına da münbit şərait yaradılmışdır. Hər il yüzlərlə yerli və xarici turistlər bu ecazkar məkana təşrif buyururlar. Bu da işsizliyin aradan qaldırılmasında, bölgədəki iqtisadi fəallığın artmasında mühüm əhəmiyyət kəsb edir. Göründüyü kimi, Gədəbəy özünün əsl inkişaf və tərəqqi dövrünü yaşayır.

**Vəli VƏLİYEV,**
**“Respublika”.**










**Respublika.- 2020.- 21 iyun.- S. 7.**